AZƏRBAYCAN MEMARLIQ TARİXİ

HISTORY OF AZERBAIJAN ARCHITECTURE

# QƏDİM VƏ ERKƏN ORTA ƏSRLƏR DÖVRÜNDƏ AZƏRBAYCAN MEMARLIĞI

## ARCHITECTURE OF AZERBAIJAN IN THE ANCIENT AND EARLY MEDIEVAL PERIOD







AZƏRBAYCAN RESPUBLİKASININ MEMARLAR İTTİFAQI
UNION OF ARCHITECTS OF AZERBAIJAN REPUBLIC

**Layihənin rəhbəri:** **Elbay Qasımzadə**

**Elmi redaktor:** **Məmmədova Gülçöhrə Hüseyn qızı**
*Azərbaycanın Əməkdar memarı, ŞÖBMA-nın həqiqi üzvü və Beynəlxalq Mühəndislik Akademiyasının (BMA) akademiki, memarlıq doktoru, professor*

**Müəlliflər:** **Məmmədova Gülçöhrə Hüseyn qızı**
*Azərbaycanın Əməkdar memarı, ŞÖBMA-nın həqiqi üzvü və Beynəlxalq Mühəndislik Akademiyasının (BMA) akademiki, memarlıq doktoru, professor*

**Hacıyeva Səbinə Xalid qızı**
*Memarlıq üzrə fəlsəfə doktoru, Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Memarlıq konstruksiyaları və abidələrin bərpası" kafedrasının dosenti*

**Elmi məsləhətçi:** **Qoşqarlı Qoşqar Oruc oğlu**
*Tarix üzrə fəlsəfə doktoru, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun "Yeni tikinti ərazilərinin arxeoloji tədqiqi" sektorunun müdiri*

**Tərcümə:** **AVRASİYA Tərcümə Mərkəzi**

Müəlliflər Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun "Antik dövr Azərbaycan arxeologiyası" şöbəsinin müdiri, tarix elmləri doktoru Babayev İlyas Atababa oğluna göstərdiyi köməyə görə xüsusi minnətdarlıq bildirirlər.

G.H.Məmmədova, S.X.Hacıyeva. **Azərbaycan memarlıq tarixi. Qədim və erkən orta əsrlər dövründə Azərbaycan memarlığı, I cild.**
Bakı, **"Şərq-Qərb"** Nəşriyyat Evi, 2013, 268 səh.

Kitabda müəlliflərin şəxsi materiallarından, eləcə də biblioqrafiyada göstərilən kitablardan və jurnallardan götürülmüş materiallardan (fotoşəkillər və çertyojlardan) istifadə edilmişdir.

© Azərbaycan Respublikası Memarlar İttifaqı, 2013
© "Şərq-Qərb" Nəşriyyat Evi, 2013

---

**Head of the Project:** **Elbay Gasimzadeh**

**Science Editor:** **Mammadova Gulchohra Huseyn**
*The honored Architect of Azerbaijan, Member of IAAEC, Academician of the International Engineering Academy, the doctor of Architecture, the professor*

**Authors:** **Mammadova Gulchohra Huseyn**
*The honored Architect of Azerbaijan, Member of IAAEC, Academician of the International Engineering Academy, the doctor of Architecture, the professor*

**Hajiyeva Sabina Khalid**
*The doctor of Philosophy in Architecture, associate professor at the department of "Architectural Constructions and Restoration of Monuments" of the Azerbaijan University of Architecture and Construction*

**Scientific Consultant:** **Goshgarly Goshgar Oruj**
*The doctor of Philosophy in History, The head of the department of "Archaeological research of areas of new construction" of the Institute of Archaeology and Ethnography of NASA*

**Translation:** **AVRASIYA Translation Center**

The authors express their special gratitude for assistance to Corresponding Member of the National Academy of Sciences of Azerbaijan, Head of the department of "Archaeology of Azerbaijan in the Antique Period" of the Institute of Archaeology and Ethnography of NASA, Doctor of Historical Sciences Babayev Ilyas Atababa.

G.H.Mammadova, S.Kh.Hajiyeva. **History of Azerbaijan Architecture. Architecture of Azerbaijan in the Ancient and Early Medieval Period, Volume 1.**
Baku, **"Sharq-Qarb"** (East-West) Publishing House, 2013, 268 pages.

The book contains photographs and drawings of the authors and materials from books and magazines, listed in the bibliography.

© Union of Architects of Azerbaijan Republic, 2013
© "Sharq-Qarb" (East-West) Publishing House, 2013

ISBN 978-9952-32-020-6
978-9952-404-93-7

www.eastwest.az
www.fb.com/eastwest.az



İ-39968

Gülçöhrə Məmmədova, Səbinə Hacıyeva

# QƏDİM VƏ ERKƏN ORTA ƏSRLƏR DÖVRÜNDƏ AZƏRBAYCAN MEMARLIĞI

Gulchohra Mammadova, Sabina Hajiyeva

# ARCHITECTURE OF AZERBAIJAN IN THE ANCIENT AND EARLY MEDIEVAL PERIOD

**BİRİNCİ CİLD / VOLUME ONE**

M.F.Ax...
Azərbaycan Milli
Kitabxanası

Bakı – 2013 – Baku

## 2. Mağara düşərgələri və qədim məskənlər

Azərbaycanda insan həyatının ən qədim ocağı Qarabağda Kiçik Qafqazın güney yamaclarında yerləşən Azıx mağarasında aşkarlanmışdır. **Azıx mağarası** pegionda Aşel dövrü insanının qalıqlarının tapıldığı birinci, dünyada isə dördüncü mağaradır (şək.4-8).

Füzuli rayonunu Azıx kəndi yaxınlığında 6 mağaradan ibarət bu kompleksdə 1960-cı ildə azərbaycanlı arxeoloq Məmmədəli Hüseynov tərəfindən paleontoloji düşərgə aşkarlanmışdır. O vaxtdan başlayaraq 1985-ci ilə qədər mağarada qazıntılar aparılmışdır. Yuxarısı hündür qübbəyə bənzər çox geniş səkkiz küyülü olan dəhliz və dövrələmə 1,5 metrlik endə 2 metrlik stalaktit sütunlar bərpa edilmişdir. Arxeoloqlar 14,5 metr qalınlıqda böyük bir qrunt təbəqəsini açmış, bunlarda aşağı və orta paleolitin müxtəlif mərhələlərinə: aşelə qədərki çaydaşı mədəniyyətinə, aşel və mustyeyə aid 11 müxtəlif zamanlı təbəqə izlənmişdir. Qazıntılar 1,2 – 1,5 milyon il əvvəl hazırlanmış əmək alətlərini üzə çıxarmışdır [45].

Aşağı – VII-X təbəqələrdə aşkarlanmış materiallar əsasında Quruçay adı verilmiş yeni arxeoloji mədəniyyət müəyyən edilmişdir. Mağarada aşkarlanmış çoxsaylı daş məmulatlar (baltalar, nukleuslar, dənəzən daşlar) və istehsalat tullantıları əmək alətlərinin məhz mağarada istehsalından söz açır. Qədim insanlar yığıcılıq və ovçuluqla məşğul olurdular. Mağaralarda ocaq yerlərinin olması mağara adamlarının od əldə etmək bacarığının olduğunu göstərir.

5-ci təbəqədə əmək alətləri ilə birlikdə Azıxda ən qiymətli tapıntı – ibtidai insanını alt çənəsinin bir hissəsi aşkarlanmışdır. Tədqiqatlar göstərmişdir ki, çənə 350-400 min il öncə yaşamış 18-22 yaşlarında qadına məxsusdur. Qalıntıları mağarada aşkarlanmış qədim insan azıxantrop adlandırıldı. Mağara divarlarındakı oyuqlardan mağara ayılarının kəllələri tapılmışdır. Onların birində edilmiş kərtiklər bundan söz açır ki, qədim insan saymağı bacarırmış. Mağara azıxantropun başlıca yaşayış yeri idi, o, qida axtarışında mağara ətrafındakı məhdud məkanda dolaşırdı. Mağarada daşla əhatələnmiş ocaq yerləri və primitiv mənzil və ya küləkdən qoruyucu

Ancient authors call about thirty quite large and well-known towns and other settlements in the territory of historical Albania. The remains of one of them - the famous ancient Gabalaka (Gabala) have been preserved till nowadays in the Gabala region near the village of Chukhur - Gabala. Interesting picture of urban life is recreated through the excavations in Ismailli, Shamakhi, Beylagan, Gazakh regions in Urtseki (Dagestan). Albanian towns of the Hellenistic era were not only political, administrative and strategic units, but the trade - craft and cultural center with large population [62].

The Romans, having seized Minor Asia and defeated the troops of the king of Pontus Mithridates VI, launched a campaign to the Caucasus. Tit Livy reports that in 66 BC Roman legions under the command of Pompey entered Albania. Series of battles was won by a more experienced, better-organized and armed Roman army. Albanian troops suffered great losses. According to information from Appian, women also fought in the Albanian troops, whose persistence and courage were admired by the Romans. This information was the occasion for the legends of brave warriors, the Amazons, who lived in the Caucasus.

The high level of public-economic development, the separation of crafts from agriculture, advanced currency trading, the local coinage, towns, town life - all this is convincing evidence of the existence of the class society and the state in Hellenistic period in Albania, ie already in the III and possibly in the IV c. BC [62].

## 2. Cave dwellings and ancient human settlements

The earliest center of human life in Azerbaijan was discovered in a cave Azikh, located on the southern slopes of the Lesser Caucasus in Garabagh. **Azikh cave** is one of few descovered caves where the remains of people of Acheulean period were found (fig.4-8).

Azikh cave in Fizuli region of Azerbaijan, where Azerbaijani archaeologist Mammadali Huseynov discovered paleolothic housing in 1960. From that time until 1985 excavations had been carried out in the cave. Corridor was







Şəkil 4-5. Azıx mağarası. Azərbaycanın Füzuli rayonu.

Picture 4-5. The Azikh cave. Fizuli region of Azerbaijan.





Şəkil 6. M.Hüseynov Azıx mağarasında.

Picture 6. M.Huseynov in the Azikh cave.

divar kimi təfsir edilən dairəşəkilli daş hörgü qalıqları tapılmışdır [14, s.10].

Azıxdan iyirmi-otuz kilometr aralıda – Füzuli rayonunda **Tağlar mağara** düşərgəsi yerləşir, burada mustye çağının insanı yaşamışdır. Arxeoloji materiallar əmək alətləri üçün çoxsaylı hazırlıqları aşkarlamışdır. Tağlar mağarasının Güney Qafqazda və Arazdan güneydə analogiyaları olan materialları arxeoloqlara bölgənin mustye mədəniyyətlərinin əlaqələri haqqında ehtimallar yürütməsinə, yerli mustye mədəniyyətlərinin inkişafının uzun bir zaman ərzində, son buzlaq dövrünə

discovered with 8 magnificent caves with a high domed top and 2-meter stalagmite columns of width of 1.5 meters in girth. Archaeologists have uncovered a thick layer of soil with thickness of 14,5 meters, where it was possible to trace 11 multi layers, belonging to different stages of the Lower and Middle Paleolithic: pre-acheulian gall culture, Acheul and Mousterian. Excavations have revealed tools made 1.2-1.5 million years ago [45].

On the base of the materials, found in the bottom layer, new archaeological culture was defined, named Kuruchays. Numerous stone tools, discovered in a cave (axes, cores, buckets) and production waste indicate production of tools inside the cave. Ancient people were involved in gathering and hunting. The presence of residual lesions in the caves demonstrates the ability of the inhabitants of the cave to make fire.

In the fifth layer the most valuable finding was discovered together with tools - part of the lower jaw of primitive man. Studies have shown that it belonged to 18-22 year old woman, who lived 350-400 thousand years ago. Ancient people, whose remains were found in a cave, were named Azikhantrop. Skulls of cave bears were found in the recesses on the walls of the cave. Resection, left on one of them, demonstrate that ancient man could count. The cave was the main habitat of Azikhantrop, who moved in a limited space around the cave in search of food. Remains of hearths, enclosed by stone and a ring-shaped masonry, were found in the cave, which is interpreted as a primitive shelter or wind protection wall [14, p.10].

There is a **Taghlar cave** settlement, located in a few dozen kilometers from Azikh on the territory of Khodjavend region, where the human of Mousterian era habited. Archaeological excavations have uncovered numerous blanks for tools. Materials of Taglar cave, unparalleled in the South Caucasus and the south area of the Araz, allowed archaeologists to assume possible links with Mousterian cultures of the region, to identify the local peculiarities of the local Mousterian culture during a long time before the last ice age and set the direction of the most ancient cultural ties [48].



QƏDİM VƏ ERKƏN ORTA ƏSRLƏR DÖVRÜNDƏ AZƏRBAYCAN MEMARLIĞI / ARCHITECTURE OF AZERBAIJAN IN THE ANCIENT AND EARLY MEDIEVAL PERIOD

qədərki lokal özəlliklərini üzə çıxarmağa və qədim mədəni əlaqələrin istiqamətlərini müəyyənləşdirməyə imkan vermişdir [48].

**Damcılı və Daş Salahlı mağaraları** paleolit və mezolit çağı insanının yaşayış yeri olmuşdur. Mağara Qazax rayonunda Avey dağının cənub-şərq yamacında yerləşir. Onun sahəsi 360 kv.m-dir. Onda aparılan qazıntıların gedişində insan fəaliyyətinin izləri – müxtəlif alətlər, ox ucluqları, bıçaqlar, ocaq yerləri aşkar edilmişdir. Mağaranın küyüllərində eləcə də oxra parçaları aşkarlanıb ki, bu da qədim insanın boyalardan istifadə edə bildiyini göstərir.

Yuxarı paleolit mədəniyyəti Azərbaycanda e.ə. XV-XII minilliklərі əhatə edir. Bu dövr homo-sapiensin – şüurlu insanın yaşayış dövrüdür. Qazax rayonundakı Damcılı mağarasında və Yataq yeri düşərgəsində, açıq Zar düşərgəsində (Kəlbəcər rayonu) və Hişkədərə düşərgəsində (Masallı rayonu) bu dövrə aid tapıntılar, o cümlədən əmək alətləri aşkar edimişdir. Yuxarı paleolit daşdan və sümükdən hazırlanmış daha kamil və universal əmək alətləri ilə fərqlənir. 1961-ci ildə Qazax rayonunun Şıxlı kəndi yaxınlığında mustye dövrü insanının düşərgəsi, ardınca bu dövrə aid qədim insanların yaşayış yerinin izləri Qədir dərəsində, Daş Salahlıda tapılmışdır.

Mezolit çağının abidələri Damcılıda və Qobustanda – Anazağa, Kənizə, Öküzlər, Firuz, Ceyranlar, Qayaarası mağaralarında aşkar edilmişdir. Bu dövr daha maraqlı abidələrlə Qobustanda təmsil olunur, burada çox qiymətli qayaüstü təsvirlərlə yanaşı meqalitik memarlıq nümunələri – yaşayış evləri, kromlex, ayin qurğuları da aşkar olunmuşdur.

**Qobustan** hərfi olaraq qobular, dərələr, yarğanlar diyarı anlamındadır. Bir zamanlar, insan sivilizasiyasının erkən çağlarında dəniz Qobustan dağlarının ətəklərini yuyurdu, sonra arxasınca qayalıqların qəribə bir tərzdə cəmləşməsini buraxaraq geri çəkilmişdir. Böyükdaş, Kiçikdaş, Cingirdağ, Şonqardağ və Şıxqaya dağlarını əhatə edən Qobustan Dövlət Tarix və Bədii Qoruğunun çox geniş ərazisində (3096 ha) burada yaşamış qədim insanın çoxsaylı izləri: düşərgələr, məzarüstü nişanələr, qayaüstü təsvirlər – Qobustan sakinlərinin qayalarda və mağara divarlarında qazdıqları petroqliflər bizim zəmanəyə qədər qalmışdır (şək.9-19).



Şəkil 7. Azıx mağarasının planı.

Picture 7. The plan of the Azykh cave.

**Damdzhyli and Dashsalahli caves** were the place of human habitation in Paleolithic and Mesolithic age. It is located in the southeast of the mountains Avey in Gazakh region. Its area is 360 sq.m. Traces of human activity have also been found during the excavation - various tools, arrowheads, knives, remains of the hearth. Pieces of ocher have also been discovered in the grotto of the caves that suggests that ancient human was familiar with the color.

Upper Paleolithic culture in Azerbaijan covers the fifteenth to twelfth century BC. This is the period of life of homo sapiens . There were finds and also tools of that period, discovered in the cave Damdzhyly in Gazakh, the settlement Yatagyeri, open settlements Zar (Kalbajar area) and Gayaarasi on the territory of Gobustan not far from Baku. Upper Paleolithic age is distinguished by more sophisticated and versatile tools made of stone and bone. More than 20 human settlements of Mousterian period were found during 1961-1965 in Gazakh region.

Mesolithic monuments have been found in Damjili and Gobustan - in caves Anazaga, Kaniza, Okuzlar, Firuz Jeyranlar, Gayaarasi. This era is most interestingly represented in Gobustan, where samples of megalithic architecture - houses, dolmen, places of worship were discovered along with the most valuable rock paintings.

**Gobustan** literally means land of gullies and ravines. Before in the early days of human civilization sea washed the foot of the mountains of Gobustan, then it receded, leaving a